## TARİX

**UOT 94(479.24)**

# 10 İYUL 1959-CU İL AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN PLENUMU. AZƏRBAYCANIN YENİ RƏHBƏRİNİN SEÇİLMƏSİ

**İ.X.ZEYNALOV**
***Bakı Dövlət Universiteti***
***zeynalov_ibrahim@hotmail.com***

*Elmi məqalədə 10 iyul 1959-cu ildə keçirilmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Azərbaycan SSR Nazirlər Sovetinin sədri V.Axundovun çıxışı əsas yer tutur. Həmçinin, məqalədə 1954-1959-cu illərdə Respublikanın sosial-iqtisadi həyatında mövcud olan vəziyyətə nəzər salınır. 1959-1965-ci illəri əhatə edən yeddiillik planın qəbul edilməsinin hansı səbəbdən irəli gəldiyi haqqında məsələyə toxunulur. Məqalədə, həm də 1958-1959-ci illərdə respublikada iqtisadi, siyasi vəziyyət, Moskvanın Azərbaycan rəhbərliyinə qərəzli münasibəti və Moskvanın müdaxiləsi ilə Respublika rəhbərliyinin öz vəzifələrindən kənarlaşdırılması və s. məsələlərdən də bəhs edilir.*

**Açar sözlər:** Azərbaycan KP MK, plenum, qurultay, mərkəz, iqtisadi böhran, mürtəce, müdaxilə, kontrol rəqəmlər, beynəlmiləl şəhər, ittifaq-respublika nazirlikləri, növbədən kənar

50-ci illərin ikinci yarısında Azərbaycan sənaye, kənd təsərrüfatı və mədəni quruculuq sahələrində bir sıra müvəfəqiyyətlər qazanmışdır. Respublikada bir sıra sənaye müəssisələri tikilmişdi. Ağır sənayenin və kənd təsərrüfatının əldə edilmiş artımı yüngül sənayenin və yeyinti sənayesinin müvəffəqiyyətlə inkişafı üçün, zəhmətkeşlərin maddi rifahının və mədəni səviyyəsinin daha da yüksəldilməsi üçün möhkəm təməl yaratmışdı.

Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin buraya axını nəticəsində Bakıda azərbaycanlıların sayı xeyli artdı, demoqrafik şərait dəyişdi. Bu, Nikita Sergeyeviç Xruşşovun beynəlmiləl şəhər olan Bakını Azərbaycanın tərkibindən çıxarıb müstəqil inzibati bölgü kimi birbaşa Moskvaya tabe etmək planını pozdu. İmam Daşdəmir oğlu Mustafayev respublikanın iqtisadi müstəqilliyinin təmin olunmasına çalışırdı. Onun rəhbərlik etdiyi illərdə respublikada pambıq istehsalı azaldıldı, əvəzinə taxıl, kartof, tərəvəz, meyvə və çay yarpağı istehsalı nisbətən çoxaldı.1954-1958-ci illərdə Azərbaycan SSR

kənd təsərrüfatı məhsulları əvvəlki 5 ildəkinə nisbətən aşağıdakı qədər artmışdır:

- Pambıq 28,5 faiz, taxıl 19,2 faiz, tütün 31,5 faiz, yaşılçay yarpağı 2,4 dəfə, üzüm 1,5 dəfə, tərəvəz 2 dəfə, barama 11,2 faiz.1953-cü ilə nisbətən 1958-ci ildə respublikada süd istehsalı artıb 230 min tondan 402 min tona, ət istehsalı 50 min tondan 64,5 min tona, yun istehsalı 5,9 min tondan 8 min tona və yumurta istehsalı 156 min. ədəddən 295 min. tona çatdırılmışdı (10, 1).

50-ci illərin ikinci yarısında milli mədəniyyətimizin inkişafında da böyük nailiyyətlər əldə edilmişdi. O dövr respublikada həm iqtisadiyyat, həm də mədəniyyətin bütün sahələrində milli kadrlar yetişdirilmişdi (1, 1).

İ.Mustafayev respublikanın rəhbəri kimi Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına çalışırdı. Mətbuatda bu məsələ açıq müzakirə olunmağa başladı. 1956-ci il avqustun 21-də Azərbaycan dili Azərbaycan dövlətinin dövlət dili elan edildi (11, 1). Azərbaycan SSR Konstitusiyasına maddə əlavə edildi. Respublikada kargüzarlıq işləri, dövlət sənədləri bu dildə aparılmağa başladı. Ali və orta ixtisas məktəblərində, habelə orta məktəblərdə ana dilində təhsil alanların sayı çoxaldı. Azərbaycan dili haqqında qanunun qəbul edilməsi ilə milli dəyərlərin qorunub saxlanılmasına cəhd edilmiş, Azərbaycan millətinin, onun mədəni irsinin yaradılmasına böyük tövhə verilmişdir. Respublikanın təhsil müəssisələrində Azərbaycan tarixi fənninin tədrisinə üstünlük verildi. Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti Azərbaycan tarixinə aid dərslik buraxmaq haqqında qərar vermişdi. Azərbaycan milli ruhun oynayışı açıq şəkildə hiss olunmağa başladı. Ədəbiyyata yeni, xalqın taleyi ilə bağlı, iştimai hadisələrin təhlilinə çağıran cəsarətli mövzular gəlməyə başladı. Bəxtiyar Vahabzadənin «Gülüstan», Rəsul Rzanın «Qızılgül olmayaydı» poemaları, İsa Hüseynovun ilk povestləri bu illərin məhsulu idi.

1957-1959-cu illərdə «İncəsənət» almanaxı, 1958-ci ildən «Bakı» axşamı qəzeti, uşaqlar üçün «Göyərçin» jurnalı çap olunmağa başladı. 1956-ci ildə Bakı televiziyası işə düşdü (18, 1).

50-ci illərin ortalarında siyasi ab-havanın yumşaldılması ilə əlaqədar milli respublikalarda, o cümlədən Azərbaycan SSR-də milli dirçəliş meyllərinin yaranması mərkəzdə şovinizmin güclənməsinə səbəb oldu. N.S.Xruşşov hakimiyyətdə möhkəmləndikdən sonra, 1957-ci ildə Sov. İKP MK-nın iyun plenumunda orduda və dövlət təhlükəsizlik komitəsində rəhbərliyi təzələdikdən sonra partiya və cəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. Xrusşşov «volyuntarizmi» dövrü başlandı (12, 1).

1957-ci ildə respublikada ümumi sənaye məhsulu 1956-ci ilə nisbətən 7% və 1955-ci ilə nisbətən 13,5% artmışdır. Həmçinin 1958-ci ildə Azərbaycanda 1913-cü ildəkindən 13,7 dəfə və 1950-ci ildəkindən 65% artıq məhsul istehsal olunduğu və elektrik enerjisi istehsalı isə 16 faiz yüksəldiyi göstərilir. Hətta dövrün sənədlərində göstərilirdi ki, Azərbaycanda elektrik enerjisi istehsalı üst-üstə Türkiyə, İran, Pakistan və Əfqənistanda həmin dövrdə istehsal olunan elektrik enerjisindən təqribən 1,5 dəfə artıq idi. 1954-1958-ci illərdə

əhalinin hər nəfəri hesab ilə elektrik enerjisi istehsalında Azərbaycan Yaponiya, İtaliya və Fransa kimi inkişaf etmiş ölkələrdən öndə gedirdi (10, 2).

| Məhsulların adı | Ölçü vahidi | İstehsalın artımı |
|---|---|---|
| Taxıl | Min ton | 11,7 |
| Tərəvəz | | 42,0 |
| Tütün | | 3,5 |
| Yaşıl çay yarpağı | ton | 800,0 |
| Bostan məhsulları | Min ton | 12,4 |
| Yun | Ton | 670,0 |
| Üzüm | Min ton | 27,7 |
| Meyvə | | 20,7 |
| Ət | | 9,4 |
| Süd | | 70,7 |
| Yumurta | Mil.ədəd | 62,2 |

1957-ci il iyulun 1-dən Azərbaycan Xalq Təsərrüfatı Şurası təşkil edilmiş və ittifaq, İttifaq-respublika və respublika nazirliklərinin bütün müəssisələri ləğv edilərək bu Şuranın sərəncamına verilmişdir. Beləliklə, 1957-ci ildə Respublika Xalq Təsərrüfatı Şurasının sərəncamında 381 müəssisə olmuşdur. XX əsrin 50-ci illərinin 2-ci yarısında respublikada kənd təsərrüfatı və heyvandarlıq məhsulları da xeyli inkişaf etmişdir. 1955-ci ilə nisbətən 1957-ci ildə bu sahədə mövcud vəziyyət aşağıda tərtib edilmiş cədvəldə öz əksini tapmışdır (10, 3).

Beləliklə, respublikanın kolxoz və sovxozları demək olar ki, bütün növ kənd təsərrüfatı məhsulları üzrə qarşıya qoyulan vəzifələri yerinə yetirmişdir.

Bunlarla yanaşı, 1956-1958-ci illərdə kənd təsərrüfatının ən başlıca sahələrindən olan pambıqçılıqda vəziyyət yaxşı olmamışdır, görülən tədbirlər bir nəticə verməmişdir. Belə ki, 1957-ci ildə hər hektardan orta hesabla 17,1 sentner məhsul götürülməklə dövlətə 340 min ton pambıq təhvil verilmişdir ki, bu da 1955-ci ildəkindən 36,7 min ton, 1956-ci ildəkindən 12 min ton azdır (3, 1).

XX əsrin 50-ci illərin sonlarına yaxın keçmiş Sovet məkanında sosial-iqtisadi və mədəni quruculuq işləri böhranlı bir vəziyyətdə idi.

Ölkədə partiyanın növbədənkənar XXI qurultayına ciddi hazırlıq gedirdi. Sual olunurdu, növbədənkənar qurultayın çağırılması hansı zərurətdən irəli gəlir? 1958-ci ilin oktyabrında Mərkəzi Komitəyə verilmiş gizli məlumatdan məlum olurdu ki, ölkədə altıncı beşilliyin tapşırıqlarını yerinə yetirmək mümkün deyildir. Belə bir şəraitdə N.Xruşşov və onun rəhbərlik etdiyi Mərkəzi Komitə yaranmış vəziyyəti müzakirə və təhlil edib, yol verilmiş nöqsanları aşkar etmək, onlardan çıxış yollarını müəyyənləşdirmək əvəzinə,1959-1965-ci illəri əhatə edəcək daha uzunmüddətli vədlərdən ibarət olan, əsaslandırılmamış tarixdə ″yeddiillik″ adını almış plan qəbul etdi (5, 1).

Sov. İKP-nin XXI qurultayına hazırlıq şəraitində, həmçinin 1959-1965-ci illəri əhatə edən SSRİ xalq təsərrüfatının inkişafına dair plan tapşırıqlarını

müzakirə etmək məqsədilə 1959-cu ilin yanvar ayının 8-də Azərbaycan KP-nin növbədənkənar XXIII qurultayı işə başladı. Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayev 1956-1965-ci illəri əhatə edən altıncı beşillik planın iqtisadi göstəricilərinə toxunmadı, yalnız 1958-ci ildə respublika xalq təsərrüfatının inkişafının bəzi yekunları üzərində dayandı. Məlum oldu ki, son illərdə mərkəzin təzyiqinə və iqtisadiyyatda yuxarı olan planlaşdırma siyasəti nəticəsində ölkənin iqtisadi sistemi pozulmuş, respublikanın əkinçilik sistemində qarğıdalı əkini xeyli üstünlük təşkil etmişdir. Belə ki, 1953-cü ildə Azərbaycanın kolxoz və sovxozlarında 10,5 min hektar qarğıdalı əkildiyi halda, 1958-ci ildə 109 min hektar qarğıdalı əkilmişdir. 1959-1965-ci illərdə isə qarğıdalı əkilən sahənin 223 min hektara çatdırılması planlaşdırılmışdı. 6 iyul 1959-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumu olmuşdur. Bu Plenumda Respublikanın partiya təşkilatının, Azərbaycan KP MK bürosunun və MK-nın birinci katibi İ.D.Mustafayevin fəaliyyətindəki nöqsan və qüsurlar müzakirə edilmişdir. 10 iyul 1959-cu il tarixli Plenumda isə Azərbaycan KP MK bürosunun üzvü Vəli Yusif oğlu Axundov hesabatla çıxış etmişdir. Onun çıxışında respublikanın sosial-iqtisadi həyatında mövcud vəziyyət təhlil edilmişdir. Plenumda V.Axundovun-Azərbaycan KP MK-nın I katibinin (1959-cu il iyul və 1969-cu il iyul) çıxışı təqdim olunur (20, 1).

Hal-hazırda Azərbaycan müxtəlif sahələrində çoxlu sayda müasir müəssisələrə malikdir. Respublikada sənayenin yeni sahələri - qara və əlvan metallurgiya, kimya, qaz, elektrotexnika və digərləri inkişaf etdi. Azərbaycan SSRİ-nin sənaye müəssisələrində hazırlanan məhsullar təkcə sovetlər birliyində deyil, həm də ölkəmizdən kənarda da məşhurdur. Respublikada müharibədən sonrakı illərdə Sumqayıt, Mingəçevir və Daşkəsən kimi yeni böyük sənaye şəhərləri salındı və inkişaf etdi. Azərbaycanın paytaxtı Bakı şəhəri Sovetlər Birliyinin ən böyük sənaye və mədəni mırkəzlərindən birinə çevrilirdi. Azərbaycanda böyük, mexanikləşdirilmiş kənd təsərrüfatı sistemi və aqrar sənaye birlikləri yaradılırdı. Azərbaycan xalqının milli mədəniyyəti çiçəklənməyə başladı. Respublika iqtisadiyyatı və mədəniyyətinin bütün sahələrində çoxlu sayda milli kadr artdı.1955-1958-ci illərdə Azərbaycan zəhmətkeşlərinin uğurları, həqiqətən də, böyük və inkarolunmazdır (4, 1).

Bütün bunlarla yanaşı zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılması üçün iqtisadiyyatın və mədəniyyətin bütün sahələrində inkişafa nail olmaq üçün daha böyük addımlar atılmalı idi. Kommunizm quruculuğunun artan problemləri respublikanın bütün partiya üzvlərindən və ən əsası da, Azərbaycan KP MK-nın bürosundan təsərrüfat və siyasi idarəetmə səviyyəsinin artırılmasını tələb edir. Lakin Azərbaycan KP MK-nin plenumunda qeyd olunduğu kimi, MK bürosu və MK-nın I katibi İ.D.Mustafayev vacib siyasi və iqtisadi məsələlərin həll olunması zamanı nöqsanlara yol verdilər, Sov. İKP XX və XXI qurultaylarının tələblərinə uyğun köklü partiya-siyasi yenidənqurma işini təşkil edə bilmədilər (20, 2).

Plenum kənd təsərrüfatının rəhbərliyində xüsusilə ciddi qüsurlar aşkar etdi. Azərbaycan KP MK-nın bürosu respublikanın partiya, sovet və kənd təsərrüfatı orqanları mövcud geniş imkanlardan və ehtiyatlardan faydalanmayaraq kənd təsərrüfatı istehsalının bütün sahələrinin artımı üzrə Sov.İKP MK-nin sentyabr və sonrakı Plenumlarının irəli sürdüyü məsələləri həll etmədilər.

Respublikanın kənd təsərrüfatının vacib sahələri – pambıqçılıq və heyvandarlıqda da vəziyyət ağır olaraq qalırdı. Ötən illər ərzində respublika pambıq istehsalı və pambıq tədarükü planını yerinə yetirmir, xam pambığın məhsuldarlığının və yığılmasının səviyyəsi aşağı düşmüşdü. Aşağı məhsuldarlıqlı pambıq əldə edən kolxozların sayı ildən-ilə artırdı. 5 il bundan əvvəl bir hektardan 10 sentnerdən aşağı pambıq yığan 30 kolxoz var idisə, 1958-ci ildə onların sayı 131 oldu. Azərbaycan KP MK-nin bəzi büro üzvlərinin və MK-nin I katibi İ.D.Mustafayevin pambığın məhsuldarlığının qəflətən aşağı düşməsinin obyektiv səbəbləri kimi əlverişsiz hava şəraitini və becərilən pambıq növünün yararsızlığını göstərmək cəhdi əsassız idi. Səbəb isə hava şəraitində deyil, məsələ Azərbaycan KP MK-nin bürosunun pambıqçılığa natamam və məsuliyyətsiz münasibət bəsləməsində, həmçinin ayrı-ayrı yerli partiya və sovet orqanlarının pambıqçılar arasında təşkilati və kütləvi-siyasi işi düzgün qura bilməmələrində idi. Plenum iştirakçılarının qeyd etdiyi kimi, qabaqcıl kolxozların təcrübəsi sübut edir ki, işi yaxşı təşkil etməklə aqrotexnikanın qaydalarına düzgün riayət etməklə həmişə yüksək keyfiyyətli pambıq əldə etmək olar (6,1).

Republika orqanlarının bir sıra rəhbərləri pambığın becərilməsinin qabaqcıl üsullarının mahiyyəti haqqında çoxlu sayda çıxışlar edirdilər. Lakin bununla yanaşı, bu üsulların istehsala tətbiq edilməsi ilə az məşğul olurdular.

Respublikanın kolxoz və sovxozlarında heyvandarlığın ümumi inkişafı qənaətbəxş deyildi. Mal-qaranın və onun məhsuldarlığının artırılması üçün planlar yerinə yetirilmirdi.

Bunu nə ilə izah etmək olar? Plenum iştirakçılarının qeyd etdiyi kimi, hər şeydən əvvəl, Azərbaycan KP MK-nin bürosu və birinci katib İ.D.Mustafayev heyvandarlığın inkişafı məsələləri ilə dərindən məşğul olmayıb, bu vacib kənd təsərrüfatı sahəsini öz axarına buraxmışlar. Mal-qaranın qulluğu, yedizdirilməsi və saxlanması işinə məsuliyyətsiz yanaşılması faktı ilə kəskin və qətiyyətli mübarizə aparılmırdı. Respublikada ümumi heyvandarlıq üçün güclü qida bazası yaradılmışdır. Yemin (qidanın) hazırlanması üçün təbii çəmənliklərdən və otlardan az istifadə olunurdu. Çoxsaylı həlli yollarına baxmayaraq qarğıdalının becərilməsinə lazimi diqqət ayrılmırdı. Bütün bunlar onu göstərir ki, Azərbaycan KP MK-nin bürosu və birinci katib İ.D.Mustafayev qısaca heyvandarlığın ümumi inkişafı ilə bağlı vacib məsələləri həll etmirdilər, Sovet və kənd təsərrüfatı orqanlarının rəhbərlərinə qarşı lazımı tələbkarlığı nümayiş etdirmirdilər. Plenum iştirakçıları haqlı olaraq qeyd edirdilər ki, kənd təsərrüfatının geriləməsi respublika zəhmətkeşlərinin qida məhsulları ilə təmin olunmasına mənfi təsir göstərirdi. Əlverişli imkanlara baxmayaraq, Bakı və

digər şəhərlərin əhalisi ət və süd məhsulları, tərəvəz, meyvə, göyərti ilə kifayət qədər təmin olunmurdular (7, 1).

Plenum iştirakçıları sənayenin idarə edilməsi məsələsinə daha çox diqqət ayırdılar. Çıxışlarda qeyd olundu ki, idarəetmənin, o, cümlədən sənaye və tikinti idarəçiliyinin yenidən qurulması müəssisə və binaların işinə müsbət təsir göstərdi, mühəndis- texniki işçilərin yaradıcı fəallığının inkişafına təkan verdi.

Bununla yanaşı, MK-nın Plenumunun göstərdiyi kimi, sənayenin idarə edilməsində böyük çatışmazlıqlar var. MK-nin bürosu sənayenin ayrı-ayrı sahələrindəki işçilərin vəziyyətilə dərindən maraqlanmır və təhlil aparmır. MK-nin birinci katibi İ.Mustafayev sənaye müəssisələrinin vəziyyətini kifayət qədər öyrənmir, sənayenin vəziyyəti ilə bağlı orta məlumatlara uyğun mühakimə yürüdürdü (8, 1).

Belə ki, neftin çıxarılması üzrə ümumi planın yerinə yetirilməsi zamanı keçən il və cari ilin 5 ayı ərzində nefçilərin əksəriyyəti qoyulan planı yerinə yetirmədilər.

Mövcud nöqsanlardan neft emalı sənayesi əziyyət çəkir. İldən-ilə bir çox zavodlar istehsal olunan neft məhsullarının çeşidinə uyğun plan yerinə yetirmirlər.

Plenumda həmçinin, qeyd olunurdu ki, respublikada sənaye və tikintinin idarə edilməsində də nöqsanlar çoxdur. Çıxışlar arasında haqlı olaraq, hazırki şəraitdə neft sənayesinə dair respublika nazirliyinin saxlanılmasının yersiz olduğu söylənirdi. İdeoloji işinin ən vacib məsələsi işçilərin zəhmətsevər, ictimai vəzifənin yerinə yetirilməsi, xalqlar dostluğu, sosialist beynəlmiləlçilik ruhunda tərbiyə olunmasıdır. Lakin plenum iştirakçılarının bütün çıxışlarında qeyd edildiyi kimi, Azərbaycan KP MK-nin bürosu bu tələbləri lazımınca yerinə yetirmir. Son vaxtlar işçilərin beynəlmiləlçilik, xalqlar dostluğu ruhunda tərbiyə olunması məsələsinə diqqət zəifləmişdir. Dil məsələsində qarışıqlıq yaradılmışdı. MK-nın bürosu isə bu məsələyə siyasi müdiriklik və prinsipiallıq nümayiş etdirmədi (8, 2).

Proletar beynəlmiləlçilik ideyalarının təbliğinə diqqətin zəifləməsi ayrı-ayrı tarixçilərin əsərlərinə təsir göstərmişdi. Azərbaycan Kommunist Partiyasının və respublikada inqilabi hərəkatın tarixinin yazılmasında qüsurlara yol verilir, tarixi faktların təhrif olunması, ayrı-ayrı tarixi şəxsiyyətlərin rolu haqqında məlumatların qeyri-obyektivliyi özünü göstərirdi (19, 1).

Bir sıra yazıçıların, rəssamların, bəstəkarların yaradıcılığında müasirlikdən yan keçməyə, keçmişin bəzi qalıqlarını reallaşdırmağa meyl müşahidə olunurdu.

Plenum iştirakçıları qəzet, radio və televiziyada ciddi çatışmazlıqların olduğunu qeyd edirdilər. Bunlar respublika qarşısında duran məsuliyyətli tapşırıqların yerinə yetirilməsində işçilərin mobilliyində az istifadə olunurlar. Qəzet səhifələrində və televiziya verilişlərində xalqlar dostluğu ideyasının, Azərbaycanın partiya təşkilatının möhtəşəm beynəlxalq ənənələrinin təbliği kifayət qədər aparılmırdı (18, 1).

Plenum iştirakçıları öz çıxışlarında razılıqla qeyd edirdilər ki, Kommunist Partiyasının hazırkı diqqəti sayəsində Azərbaycanda iqtisadiyyat və mədəniyyətin bütün sahələrində çoxsaylı, yaxşı hazırlanmış, təhsilli kadrlar artmışdır.

Buna baxmayaraq, bəzi sahələrdə yaranan problemi aradan qaldırmağı bacarmayan insanlar rəhbərlik edirlər. Bu, ondan irəli gəlir ki, kadrların seçilməsində və yerləşdirilməsində ciddi nöqsanlar və qüsurlar var. Kadrların seçilməsində partiya prinsiplərinin pozulmasının səbəbi işçilərin şəxsi tanışlarının, dostlarının və doğmalarının namizədliyinin irəli sürülməsidir (15, 1).

Plenumda administrativ orqanların, xüsusən də respublika prokurorluğunun işində ciddi çatışmazlıqların olduğu qeyd edilir. Bu çatışmazlıqlar sosialist qanunçuluğunun möhkəmləndirilməsinə və cinayətkarlıqla mübarizənin artırılmasına mane olurdu. Bununla bağlı olaraq, plenum iştirakçıları respublika prokuroru Murad Babayevin işini kəskin tənqid etdilər (16, 1).

Plenum xüsusilə qeyd edirdi ki, MK-nin bürosunun iş tərzi və metodları əksər hallarda düzgün deyildi. Onun fəaliyyətində məsələlərin həllinə rəsmi qaydada yanaşmaq az hallarda müşahidə olunurdu. Azərbaycan KP MK-nin fəaliyyətinin bu çatışmazlıqlarının və qüsurlarının səbəbi MK-nin birinci katibi İ.Mustafayevin Sov.İKP MK-nın bütün göstəriş və xəbərdarlıqlarından və Azərbaycan KP MK-nın üzvlərinin tənqidi iradlarından düzgün nəticə çıxartmamasıdır. İ.Mustafayev öz işindəki çatışmazlıqların tənqidinə dözmürdü. O, vacib məsələlərin həllində yetkinlik göstərmirdi. MK-nın bürosunu təşkil edib ona rəhbərlik edə bilmədi (20, 3).

Beləliklə, Plenum vəzifəsinin öhdəsindən gələ bilmədiyinə görə Azərbaycan KP MK-nın birinci katibi İ.D.Mustafayevi Azərbaycan KP MK-nın bürosunun üzvləri sırasından azad etdi.

Plenumda qeyd olunurdu ki, iqtisadi və mədəni quruculuqda nöqsanlara və qüsurlara görə Azərbaycan KP MK-nın bürosunun digər üzvləri də məsuliyyət daşıyırlar. Çıxış edənlər MK-nin bürosunun üzvləri İ.K.Abdullayevin və Q.İ.Cəfərlinin işini xüsusilə kəskin tənqid edirdilər (20, 4).

Plenum iştirakçıları qeyd edirdilər ki, İ.Abdullayev ən azı İ.Mustafayev qədər respublikanın kənd təsərrüfatının qaneedici olmayan vəziyyətinə görə cavabdehlik daşıyır.

Plenumda çıxış edən M.A.İbrahimov onun tərəfindən buraxılan ciddi qüsurları qəbul etdi və əmin etdi ki, təcrübi fəaliyyətində o bu nöqsanları aradan qaldıracaq.

Hesabatın müzakirəsində Azərbaycan KP MK-nın üzvləri – İ.D.Mustafayev, V.Y.Səmədov, Z.A.Kurmakayev, D.N.Yakovlev, P.A.Aruşanov, T.A.Allahverdiyev, M.A.İbrahimov, R.N.Sadıqov, M.T.Məmmədov, A.M.Malutin, İ.R.Abdullayev, S.Q.Rəhimov, H.M.Cəfərli, A.İ.Sultanova, Azərbaycan KP MK-nın üzvlüyə namizədlər – E.N.Əlixanov, A.X.Bayramov, M.R.Məmmədov, M.İ.Süleymanov, A.A.Karamyan, S.Q.Musayev, neft və kimya

sənayesi işçilərinin respublika həmkarlar ittifaqının sədri D.R.Gözəlov, və digərləri iştirak edirdilər (8, 3).

Aparılmış təhlillər göstərir ki, Azərbaycan partiya təşkilatının və onun rəhbəri İ.Mustafayevin fəaliyyəti qərəzli və birtərəfli təhlil olunmuşdur. Mərkəzin təzyiqi ilə keçirilən bu plenumda Azərbaycan KP MK bürosunun və Mərkəzi Komitəsinin birinci katibi İ.D.Mustafayevin işində «ciddi nöqsanlar və səhvlər» tutaraq göstərmişdilər ki, İ.D.Mustafayev bir sıra mühüm məsələləri lazımınca həll etməmişdir, təsərrüfat quruculuğuna və mədəni quruculuğa rəhbərliyi, partiyanın və hökumətin respublika qarşısında qoyduqları vəzifələri dövlət səviyyəsinə qaldıra bilməmişdilər, partiya siyasi işini Sov. İKP XX və XXI qurultayı tələblərinə uyğun surətdə kökündən yenidən qurulmasını təmin etməmişdilər. 1954-1959-cu illərdə əldə olunmuş nailiyyətlərə də qara yaxılırdı: məsələn, qeyd edilirdi ki, başqa respublikalarda neft sənayesi nazirliyi ləğv olunduğu halda Azərbaycanda İ.D.Mustafayev onun ləğvinə imkan verməmişdi. Sənayeyə rəhbərlik sahəsində bir sıra «ciddi nöqsan»lara yol verilmişdi. Bütün bunlar isə iftira idi. Əslində Azərbaycanda sənaye məhsulları istehsalı 1955-ci ilə nisbətən 1958-ci ildə 43 faiz artmışdır (14, 1).

Daha sonra dil haqqında: guya Azərbaycan SSR Ali Sovetinin sessiyasına verilmiş qanun layihəsində deyilirdi ki, bütün məktəblərdə uşaqların təhsili ancaq Azərbaycan dilində aparılmalıdır, rus dilinə əhəmiyyət verilmir, və guya bu da rus xalqı ilə dostluğa zərbə vurur. Qeyd olunurdu ki, İ.Mustafayev Azərbaycan dili məsələsində siyasi yetkinsizlik göstərib, zəng vurub Moskva ilə razılaşmayıb. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi çox zəruri bir milli məsələ idi. Bu, o demək deyil ki, rus dilinə maraq zəifləyib (13, 1).

İ.Mustafayevə qarşı irəli sürülən ittihamlardan biri də o idi ki, Azərbaycanda guya oktyabr inqilabının tarixi obyektiv yazılmayıb. 26 Bakı Komissarlarının fəaliyyəti yüksək qiymətləndirilməklə, onların başçısı kimi S.Şaumyanın rolu haqqında geniş danışılmışdır. Bildirilirdi ki, onların başında duran hərəkatın əsas təşkilatçısı və rəhbəri Şaumyan olmuşdur. Amma İ.Mustafayev həmişə öz çıxışlarında Məşədi Əzizbəyovun adını birinci yerdə çəkir, Şaumyanın adını isə qəsdən arxa plana keçirir. Mustafayev bu cür yanaşma ilə bəzi adamlara imkan verirdi ki, xalqın tarixini şüurlu şəkildə saxtalaşdırsınlar. İrad tutulurdu ki, Sov.İKP. qurultaylarının materiallarını əks etdirən Azərbaycan dilində bir kitab belə nəşr olunmayıb, bunun əksinə olaraq günün aktual problemlərini əks etdirmək əvəzinə, məsələn, incəsənətdə uzaq keçmişi əks etdirən mövzulara toxunulur. İrad tutulurdu və təccüblə bildirilirdi ki, Azərbaycan üçün «Tunc dövrü Azərbaycanda heyvandarlıq» adlı elmi əsərin nəşr olunması belə vacibdirmi? Mustafayevin bu siyasəti beynəlmiləlçiyə zidd olan bir məsələ kimi qiymətləndirilirdi (11, 1).

Bu və ya digər ittihamlar irəli sürən mərkəz İ.Mustafayevi millətçi adlandırmış, onun apardığı milli siyasət «Lenin normalarına» zidd olan bir siyasət kimi qiymətləndirilmişdi.

Çox təəssüf ki, mərkəzin təzyiqi nəticəsində Azərbaycan KP MK bürosunun üzvləri, başda Mirzə İbrahimov olmaqla öz fikirlərinin üstündə axıra qədər qalmadılar. Əvvəlcə, İ.Mustafayevin siyasətini bəyənən (xüsusilə də, Azərbaycan dilinin dövlət dili kimi elan edilməsi məsələsində) onun milli mədəniyyət sahəsində gördüyü tədbirləri alqışlayan «yoldaşlar», Azərbaycan KP MK Plenumda həmin alqışları tənqidə çevirmişlər (17, 1).

Plenumda İ.Mustafayev bu məsələyə toxunaraq demişdi: «Mən dövlət dili haqqında qanun qəbul edildikdən sonra yaranmış vəziyyətə aydınlıq gətirməyə çalışdım. Universitetdə, Akademiyada, fəhlə-kəndli təşkilatlarının konfranslarında çıxışlar etdim. Bu qərarın qəbulu hamı tərəfindən alqışlandı. Xüsusilə də, bu cür sözlər necə gözəl hər şeyi ümumiləşdirir. Mütərəqqi islahatlar həyata keçirirsiniz. Məni heç vaxt, heç kim bu qədər tənqid etməmişdi, mən bilmirdim ki, dil haqqında verdiyim qərar hansı nəticələrə gəlib çıxar» (5, 2).

İ.Mustafayevin apardığı milli siyasətdən təşvişə düşən Moskva İ.Mustafayevi Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən uzaqlaşdırdı. Vəli Axundov MK-nın birinci katibi seçildi (20, 4).

### ƏDƏBİYYAT


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 528 s.
2. Azərbaycan Respublikası 1991-2001. Bakı: Azərnəşr, 2001, 360 s.
3. Zeynalov İ.X. Azərbaycan sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004, 326 s.
4. Azərbaycan tarixi, VII c. Bakı: Elm, 2003, 676 s.
5. Həsənli C. Azərbaycanda Milli Məsələ: Siyasi rəhbərlik və ziyalılar 1954-1959. Bakı: Adiloğlu, 2008, 544 s.
6. Kommunist qəzeti, 24-29 iyun, 1959.
7. Azərbaycan Respublikası Prezidentinin işlər idarəsi siyasi sənədlər arxivi. Fond 1, siyahı 46, iş 88.
8. ARPİLSSA. F.1, s.46, iş 78, 25, 26, 125, 24.
9. ARPİİSSA. F.1, s.42, iş 79.
10. Mustafayev İ. Az. KP XX qurultayına Az.KP MK-nın hesabat məruzəsi. Bakı: Azərnəşr, 1958, 114 s.
11. İbrahimov M. Azərbaycan dili. Bakı: Azərnəşr, 1959, 112 s.
12. Mustafayev İ. Azərb. KP XXI qurultayına Az. KP MK-nın hesabat məruzəsi. Bakı: Azərnəşr, 1956, 132 s.
13. ARPİİSSA. F.1, s.324, iş 418.
14. Kommunist qəzeti 1959, 10-11 iyul.
15. ARPİİSSA. F.1, s.45, iş 71.
16. Ali Sovetin məlumatı. Bakı, 1957, №3, s. 7, 8.
17. Ali Sovetin məlumatı. Bakı, 1958, №8, s. 9.
18. Azərbaycan tarixi. XIX –XXI əsrin əvvəli Ali məktəblər üçün mühazirələr kursu. Bakı: Bakı Universiteti, 2010, 544 s.
19. Mustafayev İ. Sov İKP MK-nın Kənd təsərrüfatı şöbəsinə. 13.12.1954. ARİİSSA, f.1, s.40, iş 160, s. 110.
20. ARPİİSSA. F.1, s.46. iş 88.

## ПЛЕНУМ ПОЛИТИЧЕСКОГО БЮРО АЗЕРБАЙДЖАНСКОЙ КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ ОТ 10 ИЮЛЯ 1959 ГОДА. ИЗБРАНИЕ НОВОГО РУКОВОДСТВА АЗЕРБАЙДЖАНА

**И.Х.ЗЕЙНАЛОВ**

**РЕЗЮМЕ**

В научной статье главное место занимает выступление председателя Совета Министров Азербайджанской ССР В.Ахундова на Пленуме Политбюро АКП от 10 июля 1959 года. В статье рассматривается общее социально-экономическое положение в республике в 1959-1965-х гг., затрагиваются вопросы принятия семилетнего плана развития экономики 1959-65-х гг.

В статье также рассматривается экономическое, политическое положение в республике, предвзятое отношение Москвы к руководству Азербайджана и его отстранение с вмешательством центра и др.

**Ключевые слова:** ЦК Аз.КП, пленум, съезд, центр, экономический кризис, вмешательство, контрольные цифры, интернациональный город, союзно-республиканские министерства, внеочередной

## PLENUM OF THE POLITICAL BUREAU OF AZERBAIJAN COMMUNIST PARTY FROM JULY 10,1959. ELECTION OF THE NEW GOVERNMENT OF AZERBAIJAN

**I.Kh.ZEYNALOV**

**SUMMARY**

The article focuses on the chairman of the Council of Ministers of Azerbaijan SSR, V. Akhundov’s speech at the plenum of the ACP political breau from 10 July of 1959. The article analyzes the total social-economical condition in the Republic in 1959-1965 years, and touches upon the question of adoption of a seven-year-plan of economic development of 1959-1965 years.

The article also studies the economy, political condition in the Republic, and the prejudiced attitudes of Moscow to the government of Azerbaijan.

**Key words:** Central Committee of Az. CP, congress, economic crisis, interference, control digits, international city, union-republic ministries, extraordinary